**TARİX VƏ SİYASİ ELMLƏR**

**UOT 327**

# İRAN İSLAM RESPUBLİKASI İLƏ ERMƏNİSTAN RESPUBLİKASI ARASINDA MÜNASİBƏTLƏRİN XARİCİ SİYASƏT KONSEPSİYALARI BAXIMINDAN QİYMƏTLƏNDİRİLMƏSİ

**Elnur KƏLBİZADƏ***

Məqalə redaksiyaya daxil olmuşdur: 19 iyul 2025; çapa qəbul edilmişdir: 7 sentyabr 2025; online-da çap edilmişdir: 23 sentyabr 2025.

Received: 19 th of July, 2025; accepted: 7th of September, 2025; published online: 23th of September, 2025.

**Açar sözlər:** *İran, Ermənistan, xarici siyasət, geosiyasi maraqlar, ideologiya, komplementarizm*

## Giriş

Müasir beynəlxalq münasibətlərdə dövlətlərin hər biri davranışlarına görə fərqlənir. Xüsusən, dini və ideoloji əsaslar üzərindən varlığını davam etdirməyə çalışan dövlətlərin xarici siyasət davranışlarında təzadlar diqqəti cəlb edir. Bir çox hallarda rəsmi ideologiyada elan edilən prinsiplərlə praktik siyasət arasında təzadlar meydana çıxır. Bu, özünü İran İslam Respublikası və Ermənistan Respublikası arasındakı münasibətlərdə də tez-tez göstərir.

Özünü dünya "şiəliyinin mərkəzi" elan edən, konstitusiyasında "inqilabın ixracı"-nı məqsəd qoyan İranın, öz kimliyini hərtərəfli şəkildə xristianlıqla əlaqələndirən və uzun illər özünü dünyaya üç müsəlman ölkəsi arasında sıxışıb qalmış "xristian qalası" narativindən istifadə edən Ermənistanla əməkdaşlığı paradoks yaradır.

Belə olanda qarşıya sual çıxır: İranın və Ermənistanın bir-birinə olan münasibətləri dini və ideoloji prinsiplərə əsaslanır, yoxsa praqmatik maraqlara? Başqa bir sual isə Ermənistanın uzun illər xarici siyasətdə üstünlük verdiyi "komplementarizm" prinsipi ilə bağlıdır: Komplementarist xarici siyasəti hansı amillər şərtləndirmişdir?

### 1. İranın xarici siyasətinin konseptual təhlili

Müasir dövrdə Yaxın Şərq, Qafqaz və Mərkəzi Asiya geosiyasətində özünəməxsus xüsusiyyətləri ilə seçilən İran və onun şimal qonşularından biri olan Ermənistan siyasi sistemlərinin quruluşuna görə tamamilə fərqli dövlətlərdir. 1979-cu il İslam inqilabından sonra xaraktercə ideoloji dövlətə çevrilən İran xarici siyasətdə də ideoloji prinsipləri ön plana çəkmiş və bunu müxtəlif rəsmi qanunvericilik sənədlərində təsbit etmişdir. Yaxın Şərqin müsəlman ölkələrinə münasibətdə İranın xarici siyasəti kifayət qədər ideoloji xarakter daşımışdır. Bəs İranın Cənubi Qafqaz siyasətində, o cümlədən Ermənistanla münasibətlərində hansı prinsiplər üstünlük təşkil edir: ideoloji yanaşma, yoxsa praqmatizm? Əgər ideoloji prinsiplər əsas götürülürsə, İran Ermənistanla münasibətlərini necə qurur? Əgər İranın Ermənistan siyasəti praqmatikdirsə, bu, hansı zərurətdən

* *tarix üzrə fəlsəfə doktoru, dosent, Bakı Slavyan Universiteti*
*e-mail:* kelbizadeh@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.4.014**

irəli gəlir?

Konstitusiyaya görə İran xarici siyasətinin dörd başlıca prinsipi kimi aşağıdakılar müəyyənləşdirilmişdir: xarici hökmranlığın bütün formalarının rədd edilməsi; müstəqilliyin və ərazi bütövlüyünün qorunması; hegemon güclərlə ittifaq etmədən bütün müsəlmanların hüquqlarının müdafiəsi; bütün döyüşməyən dövlətlərlə sülh əlaqələrinin qorunması.

1979-cu il inqilabından sonra İran xarici siyasəti rəsmi konsepsiyada "nə Şərq, nə Qərb, yalnız İslam Cümhuriyyəti" olaraq xarakterizə edilmişdir [2, s. 83]. İran xarici siyasətinin əsaslarından biri şiə ideologiyasını başda müsəlman ölkələri olmaqla dünyaya yaymaqdır. İran konstitusiyasının preambula hissəsində inqilabın ixracı dövlətin başlıca məqsədi kimi müəyyənləşdirilmiş, beynəlxalq münasibətlərdə müsəlman hərəkatlarının dəstəklənməsi əsas vəzifə elan edilmişdir [7].

Təbii ki, bu cür çağırışlar dini-ideoloji xarakter daşıyır və İslam Respublikasının keçdiyi 43 illik tarixi yolu nəzərə aldıqda gerçəkləşdirilməsi qeyri-mümkün görünür. İranlı tədqiqatçı Əbülfəzl Bozçellouyi yazır ki, ölkəsinin xarici siyasət kursu ziddiyyətli xarakter daşıdığından, utopik məqsədlər güddüyündən qısamüddətli dövrdə müvəqqəti uğurlara nail ola bilir, lakin strateji planda daim uğursuzluqlarla üzləşir [1, s. 20].

Türkiyəli tədqiqatçı Hikmət Erdoğdu isə hesab edir ki, dini-ideoloji məsələlərdən öz məqsədləri naminə istifadə edərək əslində İran dinə deyil, əksinə, din İrana xidmət etmişdir [4, s. 268]. Digər bir tədqiqatçı Barış Doster qeyd edir ki, İran xarici siyasətdə ideoloji yanaşmalar tətbiq edir, dini ön plana çəkir, lakin bu, sadəcə bir görüntüdür. Əslində isə İran diplomatiyası mövcud şəraitdən istifadə etməyi yaxşı bacarır [3, s. 46].

1979-cu ildən sonrakı dövrdə İran İslam Respublikasında xarici siyasət məsələlərinə dörd nəzəri yanaşma mövcud olmuşdur: realist, ideoloji, praqmatik və islahatçı [14, s. 199]. Realist siyasi xətt tərəfdarları üçün dövlət maraqlarının müdafiəsi xarici siyasət xəttinin əsas prioritet istiqamətini təşkil etmiş, dini maraqlar isə nisbətən ikinci planda qalmışdır. İnqilabdan sonra müvəqqəti hökumətin baş naziri olmuş Mehdi Bazarqan bu xəttin təmsilçisi olmuşdur. İdeoloji yanaşma tərəfdarları hesab edirdilər ki, xarici siyasət İslam prinsiplərinə və şiə konsepsiyasına əsaslanmalıdır. Başqa sözlə desək, bu yanaşma tərəfdarları bütün qərar qəbul edənlərin və siyasətçilərin ideoloji dəyərlərə uyğun davranmalı olduqlarını düşünürdülər. SSRİ-nin süqutu ərəfəsində isə İran xarici siyasətində artıq praqmatik yanaşma hakim idi. Bu xətt 1997-ci ilə qədər davam etdirilmişdir. O zaman prezident olan Əli Əkbər Haşimi Rəfsəncani və praqmatik siyasət xəttinin tərəfdarları yaxşı başa düşürdülər ki, müharibədən sonra yaranmış iqtisadi şərtlər iqtisadi islahatların həyata keçirilməsini zəruri edir. Bunun üçün isə İran İslam Respublikasının beynəlxalq reallıqlara uyğunlaşmasının əsas şərt olduğu qəbul edilirdi. Beləliklə, İran beynəlxalq qanunlara və təşkilatlara hörmət edəcəyini bəyan etdi.

Məhəmməd Xatəminin prezidentliyi illərində (1997-2005) praqmatizmdən daha təkmil olan islahatçı praqmatizmə keçid baş vermişdi. Xatəmi İranın beynəlxalq siyasətdə nüfuzunu artırmağa və digər ölkələrlə dialoq və dinc yanaşı yaşamaq xəttini genişləndirməyə başladı. Xatəmi sivilizasiyaların dialoqunu irəli sürdü və xarici siyasətdə də bu amil təsirli oldu [8, s. 61]. 2005-ci ildən sonra xarici siyasət məsələlərində İran yenidən ideoloji yanaşmaya qayıtmışdır. Lakin 1981-1989-cu illərdən fərqli olaraq bu zaman dini-ideoloji yanaşma deyil, milli və bəzi hallarda hətta irqçi ideoloji yanaşma ön plana çıxmışdır. Xarici siyasətdə kəskin ideoloji xəttin yürüdülməsi İranın yenidən iqtisadi burulğanlar məngənəsinə düşməsinə səbəb olmuşdur. Bu səbəbdən də 2013-cü ildə hakimiyyətə gələn Həsən Ruhani xarici siyasət məsələlərində praqmatik xəttə üstünlük vermişdir.

2021-2024-cü illərdə İranın prezidenti olmuş İbrahim Rəisi mühafizəkar qanadın təmsilçisi olmaqla xarici siyasətdə sərt yanaşma tərəfdarı idi. Lakin COVİD-19 sonrası

dünyadakı proseslər, iqtisadi və sosial təlatümlər xarici siyasətdə mühafizəkar sərt xəttin uğursuzluğunu üzə çıxardı. Məhz bu səbəbdəndir ki, İranın növbəti prezidenti islahatçı Məsud Pezeşkiyan oldu. Seçkiqabağı kampaniyasında aktiv şəkildə islahatçılığını və azərbaycanlı – türk kimliyini ön plana çıxaran M.Pezeşkiyanın qələbə qazanmasında bu amillər təsirli rol oynadı. Aparılan təhlillər göstərir ki, Məsud Pezeşkiyanın İranda prezident seçkilərinə buraxılması və Prezidenti seçilməsi heç də təsadüfi bir hadisə olmayıb, İran dövlət sisteminin maraqlarını ifadə edir. İslahatçı prezidentin xarici dünya ilə, xüsusən sanksiyalardan aktiv təsir vasitəsi kimi istifadə edən Qərb ölkələri ilə münasibətləri nizamlayacağı düşünülürdü.

Prezidentin azərbaycanlı olmasını zəruri edən amillərdən biri siyasi sistemdə gözlənilən digər dəyişikliklər idi. Məlumdur ki, İran əhalisinin tərkibində azərbaycanlılar və farslar iki başlıca və çoxsaylı qrupu təşkil edirlər. 1979-cu ildən bəri bu ölkənin siyasi sistemini analiz etdikdə maraqlı bir mənzərə ortaya çıxır. Aydın olur ki, ali dini liderin fars əsilli və ya "İrani" olduğu dövrlərdə prezidentliyə gətirilən şəxslər azərbaycanlı-türk olmuşlar. 1989-cu ildə ölkənin o zamankı azərbaycanlı prezidenti Seyid Əli Xameneyinin ali dini lider seçilməsindən sonra isə hakimiyyətə gələn prezidentlər qeyri-türklər, qeyri-azərbaycanlılar olmuşlar. Son illərdə hazırkı dini rəhbərdən sonra onun yerinə kimin seçiləcəyi aktiv müzakirə edilir. Potensial namizədlər arasında isə qeyri-türk etnik kimliyi olan din xadimlərinin adı daha çox hallanır. Bu baxımdan mümkündür ki, 1989-cu ildən bəri davam edən tendensiya dəyişir, ali dini lider postu farslara, prezidentlik postu isə azərbaycanlılara ötürülür [11, s. 31].

Məsud Pezeşkiyanın prezident seçilməsinin İranın Cənubi Qafqaz siyasətində müəyyən dəyişikliklərə səbəb olacağı gözləniləndir. Təsadüfi deyildir ki, bəzi ekspertlər onun hakimiyyətə yolunu açan amillərdən birinin Cənubi Qafqazdakı yeni geosiyasi şərait olduğunu düşünürlər. Qeyd edilir ki, bu, 2020-ci il 44 günlük Vətən müharibəsindən sonra İrandakı azərbaycanlıların Azərbaycan Respublikasına təbii meylinin daha da güclənməsini önləmək üçün İran dövlətinin atdığı addımlardan biridir. Məqsəd ölkənin azərbaycanlı-türk əhalisinin İran dövlətini özününkü hesab etməsini təmin etməkdir. Bu, İrana həm daxili, həm də xarici siyasətdə xeyli manevr imkanları yaradır. Eyni zamanda İran başa düşür ki, Azərbaycan Respublikası onu Rusiya ilə birləşdirən xəttin üzərində yerləşir. Cənubi Qafqazda hər hansı bir layihə, o cümlədən Şimal-Cənub dəhlizi Azərbaycanın iştirakı olmadan mümkün deyil. Bu baxımdan, eyni dildə danışan Azərbaycan və İran dövlət başçılarının siyasi dialoqu daha təsirli ola bilər. İran qırx milyonluq azərbaycanlı-türk əhalisi ilə Türk Dövlətləri Təşkilatının iştirakçılarından birinə də çevrilə bilər. Hesab edilir ki, islahatçı xətt İranın yaxın perspektivdə təhlükələrdən və böhranlardan xilası üçün təsirli ola bilər.

Hazırda İranda sadalanan dörd nəzəriyyənin hər birinin tərəfdarları mövcuddur. Lakin qeyd etmək lazımdır ki, İranın xarici siyasətində nəzəri yanaşmaların və taktiki gedişlərin dəyişməsinə baxmayaraq, strateji-konseptual dəyişiklik çox nadir hallarda baş verə bilər. Çünki xarici siyasətin strateji və konseptual əsaslarını ölkənin ali dini lideri müəyyənləşdirir və ona nəzarət edir, nəzəri yanaşmalar və taktiki gedişlər isə ölkə prezidentinin baxışlarından, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərdən birbaşa olaraq asılıdır.

XX əsrin 90-cı illərindən etibarən İranın Qafqaz siyasətini tədqiq etdikdə belə bir nəticəyə gəlmək olar ki, bu siyasət əksər hallarda ideoloji deyil, realist olmuşdur. Əslində, Qafqaz dövlətlərinin, o cümlədən Ermənistanın dövlət müstəqilliyini bərpa etdiyi illər İranın xarici siyasətdə ideoloji yanaşmadan geri çəkildiyi dövrə təsadüf etmişdir. Bu zaman İranın yeni regional xarici siyasəti baş verən geosiyasi proseslər səbəbindən sırf farsların milli maraqlarına söykənirdi və artıq "inqilab"ın ixracı tam prioritet təşkil etmirdi. Jirayr Libaridyanın fikrincə, "Azərbaycan və Türkiyə xalqın əksəriyyəti İranın

Azərbaycanı dəstəkləyəcəyini gözləyirdilər. Bununla belə, İran öz regional mənafelərinə əsaslanaraq davranırdı" [13].

İranın yeganə xristian qonşusu Ermənistandır. Bu cəhətdən İran İslam Respublikasının xarici siyasət konsepsiyasında xristian dövlətlərə baxışın öyrənilməsi və Ermənistanla əlaqələrin qarşılıqlı müqayisəsinin aparılması iki dövlət arasında münasibətlərin mahiyyətini daha yaxşı aydınlaşdırmağa imkan verir.

Təhlillər göstərir ki, İran İslam Respublikası nə qədər ideoloji və dini çağırışları ilə seçilsə də, həqiqətdə xarici siyasəti praqmatikdir, şəraitə tez uyğunlaşır. İran İslam Respublikasının İsraili "Bala Şeytan", əhalisinin böyük əksəriyyəti protestantlar olan Amerika Birləşmiş Ştatlarını "Böyük Şeytan" adlandırmasına, onunla əlaqələri dondurmasına [9, s. 26; 10, s. 218] baxmayaraq, müasir dünyada pravoslav-ortodoks xristianlığının əsas təmsilçisi sayılan Rusiya Federasiyası ilə yüksək səviyyəli əlaqələrə malikdir. 2018-ci ilə qədərki münasibətlərdə İranın Rusiya ilə əlaqələri Ermənistanla münasibətlərinə təbii olaraq təsir göstərmişdir. Ermənistana bir çox köməkliklərin göstərilməsində Rusiyanın İrana etdiyi təsirlər əhəmiyyətli rol oynamışdır. Yaxud da İranın müsəlman olan Səudiyyə Ərəbistanı ilə münasibətləri dövlət səviyyəsində ateizmi dəstəkləyən Çinlə müqayisədə daha aşağı səviyyədədir.

**2. Ermənistan xarici siyasətinin konseptual təhlili**

Uzun illər ərzində prezident respublikası sistemi ilə idarə edilən Ermənistanda hüquqi olaraq xarici siyasətlə bağlı əsas qərarları prezident, baş nazir və xarici işlər naziri vermişdir. 2018-ci ildən etibarən dövlət strukturunda aparılan bəzi dəyişikliklər nəticəsində parlament respublikası sisteminə keçmiş Ermənistanda xarici siyasətin müəyyənləşdirilməsində baş nazirin rolu ön plana çıxmışdır. Praktiki olaraq isə xarici siyasətin müəyyənləşməsində təsirli rol oynayan təzyiq qrupları mövcuddur. Ölkənin xarici siyasətinin müəyyənləşməsinə qriqorian kilsəsi, xaricdəki erməni diaspora və təşkilatları təsir göstərir.

Ermənistanın xarici siyasətinə təsir edən bir sıra digər amillər də vardır. İlk amil onun coğrafiyasıdır. Ermənistan iki güclü regional aktorun – İran və Türkiyənin, miqyas baxımından iki oxşar ölkənin – Gürcüstan və Azərbaycanın qonşusudur. Rusiya Ermənistanla ortaq sərhədi olmasa da, müstəqilliyin bərpa edilməsindən sonrakı dövrdə bu ölkənin xarici siyasətinin müəyyənləşməsində əsaslı rol oynamışdır. Xarici siyasətdə diqqəti cəlb edən əsas məqam Ermənistanın xarici siyasətinin qonşu ölkələrdəki dəyişikliklərə uyğunlaşmaq məcburiyyətində qalmasıdır. Ermənistanın 2007-ci ildə qəbul edilmiş Milli Təhlükəsizlik Konsepsiyasında ölkənin xarici siyasəti komplementarizm şəklində xarakterizə edilirdi. Orada yazılırdı ki, Ermənistan beynəlxalq aləmdə tərəfdaşlıq əsasında əlaqələrin qurulmasına tərəfdardır və bölgədə fəaliyyət göstərən bütün güclərlə əlaqələrini inkişaf etdirir. Tərəfdaşlıq bölgədəki tarazlığın qorunmasına yönəlmişdir [6, s. 11].

Ermənistan xarici siyasət konsepsiyasında müsəlman dövlətlərə baxışın mahiyyətini aydınlaşdırmaq üçün tarixə diqqət yetirmək zəruridir. Ermənilər özlərini tarixdə xristianlığı dövlət dini olaraq ilk qəbul edən millət kimi tanıtmağa çalışırlar. Təbii ki, bu fərziyyəni ortaya atmaqla Ermənistan özü üçün əhalisinin əksəriyyəti müsəlmanlar olan Türkiyə və Azərbaycana qarşı "xristian cəbhəsi" formalaşdırmağa çalışmışdır. Qafqazda erməni dövlətinin qurulması bir sıra xristian dövlətlərinin müsəlman dövlət və imperiyalarına qarşı planının tərkib hissəsi olmuşdur. Heç də təsadüfi deyildir ki, Ermənistan adlanan dövlət 1918-ci ildə iki müsəlman imperiyasının (Osmanlı dövləti və Qacarlar İranı) arasındakı ərazilərdə yaradılmışdır. Elə bu faktordan da Ermənistan daim istifadə etməyə çalışmışdır. Lakin İran bu məsələdə nisbətən istisna təşkil etmişdir. Uzun illər əhalisinin xeyli hissəsi müsəlmanlardan ibarət olan Azərbaycan Respublikası ilə müha-

ribə şəraitində olan Ermənistan, probleminin İslam dünyası ilə olmadığını göstərmək üçün İranla münasibətlərdən istifadə etmişdir. Bunda məqsəd Azərbaycan Respublikasının müsəlman həmrəyliyi kontekstində apara biləcəyi təbliğatın qarşısını almaq idi [15, s. 114]. ABŞ-da yaşayan erməni əsilli professor Alla Mirzoyan məhz bu və digər xüsusiyyətləri nəzərə alaraq İran İslam Respublikasını Ermənistanın xarici siyasətində "daimi alternativ" kimi qiymətləndirir [12, s. 173-174].

Doğrudur, siyasi iqtidarların İrana nəzəri yanaşmasında fərqləri görmək mümkündür, lakin praktiki yanaşmada bu fərq öz təsdiqini çox zaman tapmır. Məsələn, Ermənistanın 2007-ci il Milli Təhlükəsizlik Strategiyasında iki antoqonist dövlət – ABŞ və İranın hər ikisi ilə qarşılıqlı faydalı əməkdaşlıq nəzərdə tutulurdu [6, s. 12]. 2020-ci ildə qəbul edilən Milli Təhlükəsizlik Strategiyasında isə İran İslam Respublikası ilə münasibətlər Rusiya, ABŞ, Avropa İttifaqı və hətta Gürcüstandan sonra xarici siyasətdə beşinci dərəcəli məsələ kimi qeyd olunmuşdu. Bu, Nikol Paşinyan hökumətinin ilk illərdə İrana olan soyuq münasibətindən qaynaqlanırdı. Lakin İranın Ermənistan üçün iqtisadi nəfəslik kimi əhəmiyyəti Ermənistanı ona qarşı çıxmaqdan çəkindirirdi. Ermənistanın 2020-ci ildə qəbul edilmiş Milli Təhlükəsizlik Strategiyasında yazılır: "Qonşu Gürcüstan və İranda sabitlik Ermənistan üçün xüsusi əhəmiyyət kəsb edir. Gürcüstan və İranla qarşılıqlı faydalı, xüsusilə mehriban qonşuluq münasibətlərinə arxalanan Ermənistan bu münasibətləri kənar geosiyasi təsirlərdən qorumaqla müxtəlif istiqamətlərdə səmərəli əməkdaşlıq şəklində inkişaf etdirəcəkdir" [5, s. 12].

**Nəticə**

Beləliklə, aparılan təhlillər həm İran İslam Respublikasının, həm də Ermənistanın bir-birinə münasibətdə idealizmdən daha çox, realizm prinsiplərinə üstünlük verdiklərini göstərir. Ermənistanın müstəqilliyini elan etdiyi illər İranın xarici siyasətdə ideoloji yanaşmadan geri çəkildiyi dövrə təsadüf etmişdir. Bu zaman İranın yeni regional xarici siyasəti baş verən geosiyasi proseslər səbəbindən sırf milli maraqlara söykənirdi və artıq inqilabı genişləndirmək tam prioritet təşkil etmirdi.

Ermənistan siyasi sistem cəhətdən dünyəvi dövlət olmasına baxmayaraq, bəzi hallarda ideoloji alətlərdən istifadə edir. İrana münasibətdə isə Ermənistan ideoloji yanaşmadan daha çox praqmatik yanaşmanı əsas götürür. Bu, Ermənistanın xarici siyasətinin dualistik xarakter daşıdığı qənaətinə gəlməyə imkan verir.

## ƏDƏBİYYAT

1. Bozcelloui İ. İran İslam Respublikasının xarici siyasətində ASEAN ölkələrinin yeri: / siyasi elmlər üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı. Bakı, 2012, 25 s.
2. İbrahimov Ə. İran İslam Respublikasının xarici siyasətinin əsas prioritetləri // Qafqazşünaslıq jurnalı, 2021, №1, s. 77-88.
3. Doster B. Bir Bölgesel Güç Olarak İran'ın Ortadoğu Politikası // Ortadoğu Analiz, 2012, Cilt: 4, Sayı: 44, s. 44-51.
4. Erdoğdu H. Büyük Pers düşüncesinden Zülfikarın yumruğuna İran. İstanbul: İQ Kültür Sanat Yayıncılık, 2008, 815 s.
5. Стратегия национальной безопасности Республики Армения. Ереван: Устойчивая Армения в меняющемся мире, 2020, Июль, 40 с.
6. Стратегия Национальной Безопасности Республики Армения // Одобрена на заседании Совета национальной безопасности при Президенте Республики Армения 26 января 2007, Ереван, 2007, 20 с.
7. Constitution of Islamic Republic of Iran: [Digital resource]. The Official Site of Islamic Parliament of Iran, 2021. (https://en.parliran.ir/eng/en/ Constitution#preamble)
8. Ehteshami A., Zweir M. Iran's Foreign Policy From Khatami to Ahmadinejad. Lebanon:

İthaca Press, 2008, 149 pp.
9. Hersberg J. The War in Afghanistan and the Iran-Contra Affairs: Missing Links? // Cold War History, 2003, April Vol. 3, №3, p. 23-48.
10. Ibrahimova G. Changes in Washington's Policy Regarding the Development of Nuclear Energy in Iran under the Obama Administration // Universidad y sociedad: tercer cuartil de scopus para universidad y sociedad, 2023, №15(3), pp. 217-222.
11. Kalbizadeh E. Masoud Pezeshkian and Prospective Scenarios on Development of Iran's Policy in the South Caucasus // Cənubi Qafqazda dövlətlərarası münasibətlərdə şəxsiyyət amili: tarixdən günümüzə mövzusunda respublika elmi konfransı. Bakı: Parlaq imzalar, 6 noyabr, 2024, pp.30-32.
12. Mirzoyan A. Armenia's Foreign Policy, 1991-2004: between History and Geopolitics // A dissertasion submitted in partial fulfillment of the requirements for the degree of doctor of philosophy in international relations. Florida, 2007, 322 p.
13. Naimi V. An Interview with Jirayr Libaridian: the Roots of Insecurity in Caucasus//. Hamshari Diplomatic, 2003, November. (www.hamshahri.net/ vejenam/diploma/1382/821 006/page06.htm).
14. Soltani F. Foreign Policy of Iran after Islamic Revolution // Journal of Politics and Law, 2010,, September, Vol. 3, №2, pp. 199-206.
15. حیدری، ج. دیدگاه امنیتی ارمنستان در قفقازجنوبی \\-تهران: فصلنامه مطالعات ۱سای مرکوزی و ففقاز، - تابستان ۱۳۸۳. سالن سیزدهم دوره چهارم. شماره ۴۶. - ص.97-118

***Резюме***

***Эльнур Кялбизаде***

***Оценка отношений между Исламской Республикой Иран и Республикой Армения с точки зрения концепций внешней политики***

В современных международных отношениях каждое государство отличается своим поведением. Особенно заметны противоречия во внешнеполитической деятельности государств, стремящихся сохранить своё существование на религиозных и идеологических основах. Во многих случаях возникают расхождения между принципами, провозглашаемыми в официальной идеологии, и практической политикой. Это часто проявляется и в отношениях между Исламской Республикой Иран и Республикой Армения.

Иран, провозгласивший себя «центром мирового шиизма» и закрепивший в своей конституции цель «экспорта революции», парадоксальным образом сотрудничает с Арменией – государством, всесторонне связывающим свою идентичность с христианством и на протяжении многих лет использующим нарратив «христианской крепости», зажатой между тремя мусульманскими странами.

В статье анализируются отношения между Исламской Республикой Иран и Республикой Армения через призму внешнеполитических концепций и стратегических интересов обеих стран. Цель исследования заключается в определении степени соответствия формирующегося между двумя государствами политического, экономического и геополитического сотрудничества и вызовов их внешнеполитическим доктринам. В ходе исследования динамика ирано-армянских отношений и их влияние на систему региональной безопасности были научно оценены на фоне изменяющегося баланса сил в регионе Южного Кавказа. Для этого были использованы методы сравнительного анализа, системного подхода и контент-анализа, а в качестве эмпирического материала применены официальные внешнеполитические документы, концепции и стратегические программы Ирана и Армении, а также отчёты международных организаций. Проведённый анализ позволяет сделать вывод о том, что Иран сохраняет идеологическую риторику во внешней политике, однако на практике действует иначе. И Исламская Республика Иран, и Армения в отношениях друг с другом отдают предпочтение принципам реализма, а не идеализма.

**Ключевые слова:** *Иран, Армения, внешняя политика, кгеополитические интересы, идеология, комплементаризм*

***Summary***

***Elnur Kalbızada***

***Assessment of Relations Between the Islamic Republic of Iran and the Republic of Armenia in the Context of Foreign Policy Concepts***

In modern international relations, each state differs in its behavior. Particularly, contradictions are evident in the foreign policy conduct of states that seek to sustain their existence on religious and ideological foundations. In many cases, discrepancies emerge between the principles proclaimed in official ideology and the practical policies pursued. This is often observed in the relations between the Islamic Republic of Iran and the Republic of Armenia. Iran, which declares itself the "center of global Shiism" and enshrines the "export of the revolution" as a constitutional objective, paradoxically maintains cooperation with Armenia – a state that comprehensively associates its identity with Christianity and has long promoted the narrative of being a "Christian fortress" trapped among three Muslim countries.The article analyzes the relations between the Islamic Republic of Iran and the Republic of Armenia through the prism of both states' foreign policy concepts and strategic interests. The aim is to determine the extent to which the emerging political, economic, and geopolitical cooperation and challenges between the two countries are consistent with their foreign policy doctrines. During the research, the dynamics of Iran–Armenia relations and their impact on the regional security system were scientifically evaluated against the backdrop of changing power balances in the South Caucasus. For this purpose, comparative analysis, systematic approach, and content analysis methods were applied, while empirical materials included the official foreign policy documents, concepts, and strategic programs of Iran and Armenia, as well as reports of international organizations. The conducted analyses make it possible to conclude that Iran maintains ideological rhetoric in its foreign policy, yet acts differently in practice. Both the Islamic Republic of Iran and Armenia prefer the principles of realism rather than idealism in their mutual relations.

**Key words:** *Iran, Armenia, foreign policy, geopolitical interests, ideology, complementarism.*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.